**“2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Rezspublikası Prezidentinin seçkilərində kütləvi informasiya vasitələri tərəfindən seçkiqabağı təşviqata dair qanunvericiliyin tələblərinə əməl olunmasının vacibliyi ilə əlaqədar” Bəyanatın qəbul edilməsi ilə bağlı**

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən Mətbuat qrupunun**

# Q ə r a r ı

Hələ seçkiqabağı təşviqat ərəfəsində Mərkəzi Seçki Komissiyası tərəfindən seçkilərin demokratik tələblərə uyğun, azad, ədalətli və şəffaf keçirilməsində kütləvi informasiya vasitələrinin rolunun əhəmiyyəti və onların qanunvericiliyin tələblərinə uyğun fəaliyyət göstərmələrinin vacibliyi barədə aidiyyəti qurum və şəxslərə müraciət olunmuşdur və ümumilikdə proses qanunvericiliyin tələblərinə uyğun davam edir.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən mətbuat qrupu daxil olan məlumatlar və aparılan monitorinqin nəticəsinə uyğun olaraq, bəzi qanun pozuntuları aşkar etmişdir.

Belə ki, son vaxtlar Seçki Məcəlləsinin tələblərinə görə seçkiqabağı təşviqat prosesində ümumiyyətlə iştirak etmək hüququ olmayan, respublikamızın ərazisində yayımlanan “Azadlıq radiosu TV”, “Amerikanın səsi” və BBC radiostansiyaları kimi nüfuzlu xarici kütləvi informasiya vasitələri bir çox hallarda seçki prosesini

işıqlandırmaq adı altında qanunsuz təşviqat və əks-təşviqat aparır, bununla da bəzi siyasi maraqların təmsilçisinə çevrilərək seçicilərin ədalətli məlumat almaq hüquqlarını pozmuş olurlar.

Ona görə də bu qanunsuz fəaliyyətin qarşısının alınması məqsədilə bəyanat qəbul olunmalı, həmin kütləvi informasiya vasitələrinin və digər media qurumlarının diqqəti bir daha qanunvericiliyin tələblərinə yönəldilməli və bəyanat ictimailəşdirilməlidir.

Yuxarıda qeyd olunanlara, Seçki Məcəlləsinin 74.4-cü maddəsinə və “Kütləvi informasiya vasitələrində seçkiqabağı təşviqatın aparılması qaydalarına əməl olunmasına nəzarət üzrə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində mətbuat qrupu haqqında” Əsassnaməyə uyğun olaraq, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən mətbuat qrupu **q ə r a r a a l ı r**:

1. “2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində kütləvi İnformasiya vasitələri tərəfindən seçkiqabağı təşviqata dair qanunvericiliyin tələblərinə əməl olunmasının vacibliyi ilə əlaqədar” Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən mətbuat qrupunun Bəyanatı qəbul edilsin.
2. Bəyanat ictimailəşdirilsin.

İclasın sədri:

Mətbuat qrupunun rəhbəri Azər Tağıyev

İclasın katibi:

Mətbuat qrupunun üzvü Azər Sarıyev